Ədalət.- 2021.- 18 fevral.- S.6.



# Seyran Səxavət dünyası

(əvvəli ötən sayımızda)

**1987-ci ildə Bakıda Seyran Səxavətin "Dar köynək" adlı kitabı çap olunur. Bu kitaba yazıçının " Dar köynək" və "Gözü işığa düşmüş adam" povestləri daxil edilmişdir. Bu əsərlərdə də müəllifin əşyanı, faktı mənalandırmaq bacarığı diqqətdən yayınmır. O, sözün özəyinə müdaxilə edir, onun içindəki mətləblərdən oxucunu hali edirdi. "Dar köynək"də: "İnsan gözlərinin rəngi, necə deyərlər, sirri-xuda kimi bir şeydi: bu rəngin heç vaxt rəngi çıxmaz. Yoxsa qaragöz adam ağlayanda gözlərinin yaşı qara, göygöz adam ağlayanda, gözlərinin rəngi göy, qonur göz adam ağlayanda gözlərinin yaşı qonur olardı!"**

Yazıçı söylədiyi mətləbə aydınlıq gətirərək, şübhəqarışıq inamla yazır: "Bəlkə də, insan gözünün bir rəngi var, işıq rəngi - dünya..."

"Dar köynək" povestini çox sadə, büllur dil, bir qədər kinematoqrafik üslub - sadə həyat materialına uyğun, yatımlı ifadə tərzi fərqləndirir. Bu əsər doğum-ölüm qütbləşməsi üzərində qurulub və oxucunu ilkin və əbədi başlanğıclar barədə düşündürür. Bu iki qütbün arasında isə sonsuzluq problemi durur. Həyatın əbədi gəncliyi, onun özünütəkrarı məsələsi Seyran Səxavətin yaratdığı ən gözəl obrazlardan biri olan Reyhanın simasında ümumiləşir. Cavan olsa da, xalq ruhunun bütün gözəlliyi, təmənnasız xeyirxahlığı və müdrikliyi onun timsalında olduqca həssaslıqla öz bədii əksini tapır.

Seyran Səxavətin yaratdığı Reyhan son dövr bədii nəsrimizdə ən gözəl qadın obrazlarından biridir.

### *"Yüz ilin kişisi" hekayəsi*

***isə orijinal fikirlər düzümündən ibarətdir. Yazıçı insanın taleyi, həyatın mənası, ölümün labüdlüyü haqqında düşüncələr fonunda Bəylər kişinin ömrünün ayrı-ayrı epizodları ilə bizi tanış edir və oxucunun gözləri önündə onun yüz yaşlı, mərd, cəfakeş, eyni zamanda, güclü, əzəmətli, mətin bir insanın obrazı canlanır. Əlbəttə, hekayənin nisbətən gizli qalan mənası daha dərin və genişdir: keçmişlə bu gün arasında olan əxlaqi-mənəvi varislik və babaların mərdliyini, qeyrətini yaşadan gənclərin ənənələrə sədaqəti...***

Hekayənin qəhrəmanı Bəylər kişi bu dünyada düz 99 il ömür sürüb. O, ömür yolunda yaxşı adamlarla da rastlaşıb, pislərlə də üzləşib.

Yaxşılara kömək edib, pislərin isə boynunun dalından basmayıb, çalışıb ki, elə pislər də yaxşı olsun. İsmayıl oğlu Bəylər doğulduğu kənddə çoxunu "yola salıb". Amma özünün ağlını, oturuşunu, duruşunu, rəftarını heç hara yola salmayıb, bir sözlə, xərifləməyib. Bu qocaman insanın bu kəndin dağı kimi vüqarlı, çayı kimi saf ömür yolu hamıya görk ediləsidir.

***Onun işıqlı əməllərini və şəxsiyyətini yaşatmaq istəyi yazıçının içindən süzülərək qələminin iti ucundan keçərək ağ kağıza tökülüb daha da bütövləşir, tamlaşır. Oxucu el-obamızda, dəyərlərimizin bu qədər dağıldığı bir zamanda hələ də belə kişilərin yaşamasına sevinir və o kişilərin həyatda itməyən adlarını, əməllərini özlərində yaşatmağa çalışır. Müəllif hər hansı mövzunu qələmə almasından asılı olmayaraq, demək olar ki, bütün əsərlərində surətin daxili aləmini, psixologiyasını, ətraf mühitə münasibətini açmağa çalışır. İsmayıl oğlu Bəylər, Misirxan kişi, Qədimalı kişi belə surətlərdəndir. Yazıçı bu obrazları ədəbiyyatdan gəlmiş həvəs və istəklə təsvir etmir. Onları maraqlı detallar tapmaqla həyati uyğunlaşdırmalarla oxucularına təqdim edir.***

Seyran Səxavət "Parovoz sürən" (1977), "Gün ağladılar" (1979), "Bir kisə kartof" (1981) televiziya tamaşalarının müəllifidir. Yazıçının əsərləri rus, ingilis, fransız, fars və başqa dillərə tərcümə olunmuşdur. "Qızıl teşt" pyesi 1988-ci ildə Azərbaycan Dövlət Akademik Dram Teatrında, "Büst" pyesi 1989-cu ildə Lənkəranda, "Qapıların o üzündə qalan dünya" pyesi 1990-cı ildə Füzulidə Dövlət teatrlarında tamaşaya qoyulub.

### *Seyran Səxavətin əsərlərinin fəlsəfi-estetik istiqaməti*

Tanrının, həyatın və insanın dərkinə doğrudur. Müraciət etdiyi mövzudan asılı olmayaraq o, hər bir mövzuya çoxlarını düşündürən ümumbəşəri problemlər çərçivəsindən baxır, həmin problemlərin bədii-obrazlı həllini axtarır və öz səmimi yazıçı sözünü deməyə çalışır. Seyran Səxavət oxucunu, dinləyicini bütün məqamlarda gərgin saxlamağa qadir olan istedadlı nasirdir. Oxucu özünü həmin əsərlərdə hadisələrin içində zənn edir, yazıçının təhkiyəsi, demək olar ki, hiss olunmur. Onun bəhs etdiyi həyat hadisələri hər addımda yeni detallarla, yeni təəssüratlarla dolğunlaşır və bunların hamısı bizim üçün doğma və təbii səslənir.

### *Seyran Səxavətin bədii nəsrini*

müasir ədəbi tənqid daim diqqətlə izləmişdir. Yazıçının bədii nəsri nikbin ruhu, incə lirizmi, şirin yumoru, tragik məqamları, komik situasiyaları ilə müasir nəsrin polifoniyasında özünəməxsus yer tutur. Ədib zəngin yumor və satira vasitələrindən ustalıqla istifadə etməklə sosial-psixoloji və mənəvi-əxlaqi problemlərin ciddi islahına çalışmış, hadisə və xarakterlərin təbiətindəki komizmi, daxili gizlinlərini açıb göstərmişdir. Dərin və əhatəli psixologizm Seyran Səxavət təhkiyəsinin qidasıdır.



S.Səxavətin bədii nəsrində XX və XXI əsr dünyasının rəngarəng təzadları, cəmiyyətin sosial-siyasi və mənəvi aşınmaları, hər cür insan tipinin bədii ifadəsi aydın görünür.

Sənətkar həyatın geniş sosial mənzərəsini deyil, onun insan mənəviyyatında doğurduğu konkret, retrospektiv cəhətlərini peşəkarlıqla qələmə almışdır.

S.Səxavət nəsr və dramaturgiyanın əlvan janrlarında mövcud cəmiyyətin tipik mövzularını, problemlərini, milli və bəşəri məsələlərini, mürəkkəb insan xarakterlərini özəl boyalarla əks etdirmiş və yazıçı istedadının poetik sirlərini canlandırmışdır.

Sənətkarın zəngin təxəyyülü narahat dünyamızın sosial-siyasi problemlərini, milli həyatımızın mənəvi-psixoloji aspektlərini açıb göstərməyə kifayət etmişdir.

Yazıçının "Qızıl teşt", "Daş evlər", "Dar köynək", "Palıd toxumu", "Nekroloq", "Yəhudi əlifbası", "Bəhanə", "Qaçhaqaç" və başqa əsərlərində mənəvi cəhətdən şikəst insanların və bunları doğuran obyektiv və subyektiv səbəblərin mahiyyəti, cəmiyyətdəki sosial haqsızlıq və ədalətsizliklərin ailələrə, talelərə gətirdiyi psixoloji-fəci ağrılar əks olunmuşdur.

### *Seyran Səxavət psixologizminin mahiyyəti*

***müxtəlif obrazların düşdüyü vəziyyət, təsvir olunan hadisələrin təzadlarından, habelə, cəmiyyətin psixologiyasından doğur. S.Səxavətin psixologizmi doğma ana dili, adət-ənənə və sosial gerçəkliyin öz təbiəti ilə çulğalaşır. Sənətkarın psixologizmini güclü milli şüur yanğısı, tarix, mənəvi yaddaş və heysiyyat izləyir.***

Ədibin həssas müşahidə qabiliyyəti, zəngin erudisiyası və bədii təxəyyülü narahat dünyamızın sosial-siyasi problemlərini, milli həyatımızın mənəvi-psixoloji yönlərini açıb göstərməyə kifayət etmişdir. Yazıçının "Gün ağladılar", "Qatil", "Haram pul", "Yüz ilin kişisi", "Bir stəkan hava", "Ocaq daşı", "Gözü işığa düşən adam", "Qapıların o üzündə qalan dünya", "Hamı elə bilirdi", "Çayçı Rəşid", "Alça çiçəyi", "Toy havası", "Qızıl teşt", "Sanatoriya", "Ağrı", Boynu əyri kişi", "İt intervüsü", "Cəhənnəm", "Daş evlər", "Dar köynək", "Palıd toxumu", "Nekroloq", "Yəhudi əlifbası", "Bəhanə", "Qaçhaqaç" və başqa əsərlərində mənəvi-ruhi cəhətdən şikəst insanların və bu insanları doğuran obyektiv və subyektiv səbəblərin mahiyyəti, cəmiyyətdəki sosial haqsızlıq və ədalətsizliklərin ailələrə, talelərə gətirdiyi psixoloji-fəci ağrılar əks olunmuşdur.

***Seyran Səxavətin əsərlərində dərin və əhatəli psixologizm müşahidə olunmaqdadır. Müəllifin psixologizmi doğma ana dili, adət-ənənə və sosial -ictimai gerçəkliyin öz təbiəti ilə çulğalaşır. Sənətkarın psixologizmini güclü milli şüur yanğısı, tarix, mənəvi yaddaş və heysiyyat izləyir. S.Səxavətin ədəbi-bədii dili şirəli və axıcı, yazıçı təxəyyülü çox zəngin və həssas, tənqidi realizmi dərin və əhatəli, üslub vasitələri əlvan və yetərlidir.***

Seyran Səxavət mənsub olduğu xalqın, dövlətin əxlaq və mənəviyyatını həmişə sağlam ruhlu, köklü, rişəli görmək istəyir. Bu baxımdan ədibin bədii yaradıcılığının mənəvi-əxlaqi, sosial-siyasi və tərbiyəvi əhəmiyyəti çox güclüdür.

Seyran Səxavətin bədii yaradıcılığı milli-tarixi, çağdaş şüur problemləri ilə bağlı olan, bu bədii keyfiyyətin fərd, ailə, cəmiyyət, dünya-insan-zaman boyunca yayımlandığı və ədəbi prosesə təsir göstərdiyi orijinal yaradıcılıqdır.

***Sözünü, zamanını, vaxtını dəyərləndirməyi bacaran Seyran Səxavət yaşadığı ömrü çox şərəflə dəyərləndirir. O, tutduğu yoldan, əqidəsindən, məsləyindən böyük Sabir kimi bir an belə dönmədən Haqqın səsini duyuraraq Haqq yolunu, "düzü düz, əyrini əyri" göstərmək yolunu tutub. Şərəfini, ləyaqətini, heysiyyətini ayaqlar altına atan, məddahlığı özünə peşə edən bir toplumun arasında öz təmiz adının ucalığını qorumaq, nə qədər çətin olsa da, Seyran Səxavət bunu bacarır. Müsahibələrinin birində yazıçı qeyd edir ki, adına ziyalı deyilən adamın yaltaqlığı çox eybəcər olur. Əsl ziyalını sındırmaq, tutduğu və getdiyi Haqq yolundan döndərmək olmaz. Seyran Səxavət belə yazarlarımızdan, sözün tam mənasında əsl ziyalılarımızdandır. O yazıçı və ziyalılarımızdandır ki, bizi aşınmağa, ruhumuzu çirklənməyə, mənəviyyatımızı karroziyaya uğramağa qoymur.***

### *Cəmiyyətdəki qorxunc və qaçılmaz mənəvi aşınma*

prosesi, dəyərlərin itirilməsi ciddi ədəbiyyatın kölgədə qalmasının, ona biganə yanaşmağın nəticəsidir. Böyük incəsənət, o cümlədən, ciddi ədəbiyyat xəstə təfəkkürlü cəmiyyəti sağalda biləcək mühüm təsir vasitəsidir.

Zamanın nəbzini tutmayan, mənsub olduğu xalqın dərdlərini dilə gətirməyən, onun sosial-mənəvi problemlərini bədii həqiqətə çevirməyən ədəbiyyat böyük ədəbiyyat sayıla bilməz. Bu mənada, Seyran Səxavət Azərbaycan cəmiyyətini narahat edən gerçəklikdən doğan problemləri özündə əks etdirən, oxucunu düşündürən və doğru yola yönəldən, dərin mənə qatlarına malik qiymətli əsərlər müəllifi kimi tanınmış istedadlı yazıçıdır. O, artıq böyük ədəbiyyat yaradıcılığı yoluna çıxmışdır və bu yolda ləyaqətlə addımlayır, əsərləri insanı əqli-emosional kamilliyə və mənəvi-əxlaqi bütövlüyə səsləyir. Ən əsası odur ki, oxucu onun əsərlərindən və daxili dünyasının zənginliyindən bəhrələnib özündə dərin mənəvi aləm formalaşdırmaq imkanı əldə edir.

### *İstedad həm də gerçəyi deyə bilməkdir*

***İstedad o vaxt böyük olur ki, cəsarətə söykənsin. İnsan o zaman şəxsiyyət olur ki, özünü xırdalamasın. Şərəfini, ləyaqətini, sözünü medala, evə, hər hansısa mandata, komforta dəyişən ruhu satılmışların yaşadığı bir toplumun içində hələ də nəfəs ala biliriksə, bu məhz şəxsiyyəti xırdalanmayanların, sürüşə-sürüşə ucalmaq sevdasına düşməyənlərin hesabınadır. Bu cür insanlar dəyərdi - Seyran Səxavət kimi.***

Sizlər var olduqca bizim yaşamaq, qorumaq və mücadilə etmək üçün nədənlərimiz olacaq, Ustad. Düşünəcəyik ki, Sözünün və özünün azadlığını kölgələməyən, xırdalanmayan beşcə nəfər belə varsa, onlara tutunub yaşamağa, yola davam etməyə dəyər. Xırdalanaraq böyümək, Azadlığı hər şeydən uca tutan Vicdanın - Böyük Ürəyin qarşısında baş əyirəm!

Yaxşı ki Varsan, Ustad!

Şərəfini, ləyaqətini, heysiyyətini ayaqlar altına atan, məddahlığı özünə peşə edən bu dünyanın tən ortasında Seyran Səxavəti qoruduğun, həm də məhz bu cür qoruduğun üçün Var ol! Həqiqətləri deməyin yasaq olunduğu, yarımhəqiqətlərin və yalanların üstündə inşa olunan bir dünyada Seyran Səxavət şəxsiyyəti və yaradıcılığı arasındakı bütövlüyü, tamlığı qoruya bildiyin üçün Var ol!

Sözün müqəddəsliyini Bəylər dədənin, Əsgər kişinin, Zərif ananın ruhu təkin ağırlayıb-əzizlədiyin üçün Var ol!

**Həmişə Var ol, Ustad! Səni ürəkdən təbrik edirəm. Azad olunmuş Qarabağın mübarək! Ata yurduna müqəddəs qayıdışın mübarək! Müdriklik nərdivanında ən şərəfli pillən - 75 yaşın mübarək, Ustad!**

**Xəyalə Zərrabqızı**